(əvvəli ötən sayımızda)

# KÜRDƏMİR: ARZULAR GERÇƏKLƏŞİR

**Hazırda taxıl sahələrinə qulluq edilməsi ilə yanaşı, taxıl biçininə hazırlıq işləri də davam etdirilir. Biçin mövsümünə 42 kombayn hazırlanır və onlarda təmir işləri aparılır. Rayonda taxıl biçinini vaxtında başa çatdırmaq məqsədi ilə kənardan əlavə 130-dan çox kombayn cəlb edilməsi ilə bağlı iş aparılır, müqavilələr bağlanılır.**

Rayonda yazlıq əkinlər mütəşəkkil davam etdirilir. Hazırki vaxta 1390 hektardan çox sahədə yonca səpilmiş, 915 hektardan çox sahədə kartof əkini aparılmış, 1383 hektardan çox tərəvəz toxumu səpilmiş, 2600 hektarda bostan, 216 hektardan çox sahədə şəkər çuğunduru əkilmişdir. Rayonda bu il 2809,2 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuş, pambıq əkən şəxslər müəyyənləşdirilmişdir. Belə ki, "P-Aqro" MMC tərəfindən 1800 hektarda, "MKT İK"MMC tərəfindən 724,2 hektarda, Vüqar Aqro" MMC tərəfindən 250, "Azərpambıq" MMC tərəfindən 35 hektarda pambıq əkini üçün müqavilələr bağlanılmış, pambıq əkiləcək sahələr optimal müddətdə şumlanmış, arat edilmiş və səpin aparılmışdır. Sahələrə 30 mala traktoru, 31 ədəd səpin aqreqatı çıxarılmış, 2809 hektarda səpin işləri başa çatdırılmışdır. Havaların yağıntılı keçməsi pambıq səpinini xeyli ləngitmiş, buna baxmayaraq səpin işlərinin tezliklə başa çatdırılması üçün bütün təşkilati və texniki tədbirlər görülmüşdür. Pambıq səpini ilə əlaqədar sahələrdə 3000 nəfərdən çox işçi qüvvəsi çalışmışdır. Artıq sahələrdə əsasən normal çıxış alınmış, hazırda birinci kompleks becərmə işləri aparılır.Pambıqçılıq sahəsində aparılan işlər bu il hər hektardan 20 sentnerdən çox məhsul əldə etməyə zəmin yaradır. Rayonda əkinçilik üçün əlverişli olan 14573 hektar qış otlaq sahəsinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir. Bu torpaqlarda artıq 5 aqropark yaradılmış, aqroparklar tərəfindən bu sahələrin meliorasiya olunması, müasir suvarma sistemləri qurulması, torpağın yaxşılaşdırılmasına yönəldilən digər tədbirlərin görülməsi sahəsində işlər aparılır. Bu il artıq bu torpaqların 6831 hektarında taxıl, 1090 hektarında pambıq əkilmiş, 1800 hektarında qarğıdalı, günəbaxan və sair yazlıq əkinlərin aparılması işləri davam etdirilir. Rayonda 2018-ci ildə 20400 kq barama istehsal edilmiş, bu il 33 ton barama istehsalı nəzərdə tutulmuşdur. Barama saxlayacaq kumçülər müəyyənləşdirilmiş, kümxanalar hazır vəziyyətə gətirilmiş, sanitar tədbirlər görülmüşdür.Bu il üçün 249 nəfər kümçüyə 825 qutu barama qurdu paylanılmış və müvafiq kağız və digər avadanlıqlarla təmin edilmişdir. Barama qurdlarının yem bazasının təmin edilməsi məqsədi ilə 2018-ci ildə 126 min tut tingi əkilmiş, bunlardan 55 min ədədi Çin Respublikasından gətirilmiş, 71 mini isə yerli tut tingləridir. Ümumilikdə rayon üzrə 239,5 min ədəd tut tingi əkilmişdir. Bu il tərəvəzin örtülü qruntlarda yetişdirilməsi genişləndirilmiş, 12 hektarda müasir istixana qurulmuş, əlavə 7 hektarda xırda istixanalarda tərəvəz yetişdirilir. Müasir istixanaların sahəsinin 400 hektara çatdırılması üçün hazırlıq işləri aparılır.





Torpaqların su təminatının yaxşılaşdırılması sahəsində xeyli işlər görülmüşdür. Bu ilin birinci rübündə 251 km uzunluqda kanallar, 55 km dren kollektorları lildən təmizlənmiş, 2,1 km latok kanal, 49 hidrotexniki qurğu, 4 nasos, 1 nasos stansiyası əsaslı təmir edilmişdir.Rayonun Pirili-Muradxan və Şilyan massivlərində təyinatı əkinçilik məqsədi ilə dəyişdirilmiş 10600 hektar sahənin su təchizatının yaxşılaşdırılması məqsədi ilə Ərəbxana-Şilyan kanalının su keçirmə qabiliyyətinin artırılması, Muradxan-Pirili kanalının tikilməsi layihələrində işlərin 60 faizi görülmüşdür. Tikintilərin qalan hissəsinin aparılması üçün maliyyə vəsaitinin ayrılması məqsədi ilə aidiyyatı orqanlara müraciətlər davam etdirilir. Əlavə vəsait ayrıldıqdan sonra bu sahədə işlər davam etdiriləcəkdir.Ölkə Prezidentinin müvafiq Sərəncamına əsasən rayonun Axtaçı-Qarabucaq, Qoçulu, Garıs-Əyribənd və Bağman kəndlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə cari ilin birinci rübündə modul tipli su təmizləyici qurğuların quraşdırılması işi başa çatdırılmışdır.Rayonda heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülür. Hazırda iri buynuzlu mal qaranın sayı 66,3 min başı, qoyun keçilərin sayı 138 min başı ötmüş, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunmuşdur. Bu ilin ötən dövründə 2223 tondan çox ət, 10678 ton süd, 6 milyon 841 min ədəd yumurta istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayon üzrə ət itehsalı 7,1 faiz, süd istehsalı 0,1 faiz artmışdır.Dövlət praqramına uyğun olaraq Kürdəmir Süd Emalı Zavodunun Padarçöl heyvandarlıq kompleksinin genişləndirilməsi işləri davam etdirilir. Kompleksdə 2000 baş heyvanın saxlanılması nəzərdə tutulur. Hazırda fermada 1270 baş südlük Holstein Friz cinsli inək bəslənilir, ayda orta hesabla 920 ton süd istehsal edilir. Dövlət Proqramının icrası ilə əlaqədar hazırda rayonda 34 km-lik Pirili-Muradxan - Sor-Sor avtomobil yolunda yenidənqurma işləri həyata keçirilir. Avtomobil yolunda yolun çəkilişi başa çatdırılmış, hazırda həmin yolda çiyinlərin 12 sm qalınlıqda optimal qum çınqıl materialı ilə bərkidilməsi işləri görülür və yol nişanlarının, məlumat verici lövhələrin quraşdırılması üçün hazırlıq işlərinə başlanılmışdır. Rayonun 37,2 km-lik Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunda torpaq və qum çınqıl işləri görülmüş, hazırda Böyük Kəngərli kəndi ilə Bağman kəndini birləşdirən ərazidə yolun torpaq yatağının işlənməsinə başlanılmdışdır. 14,3 km-lik Şilyan-Qarasu avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmış, hazırda Baş Şirvan kollektoru üzərində 4 aşırımlı körpünün tikintisi işləri aparılır və yol yatağının kipləşdirilməsi işləri davam etdirilir.3,75 km Yenikənd-Dəyirmanlı avtomobil yolunda əsaslı təmir işləri davam edir. Yolun əsası əlavə material verilməklə kipləşdirilmiş, 3,75 km məsafədə asfalt örtüyü vurulmuş, tikinti işləri başa çatdırılmışdır.





**Əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon İcra Hakimiyyətinin daim diqqət mərkəzində olmuşdur.Rayonun elektrik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində əhalinin elektrik enerjisinə olan tələbatını ödəmək məqsədi ilə 2019-cu ilin birinci rübündə Kürdəmir şəhəri ərazisində, Atakişili, Ərəbqubalı və Pirili kəndlərində 16 km açıq naqillər SİP kabellə əvəz olunmuş, şəhər ərazisində, Atakişili, Sığırlı və Xırdapay kəndlərində 470 abonentin sayğacları müasir tipli sayğaclarla əvəz edilmişdir. Hazırda Kürdəmir şəhəri ərazisində, Atakişili, Xırdapay, Ərəbqubalı və Pirili kəndlərində yenidənqurma işləri davam etdirilir. Birinci rüb ərzində rayon üzrə sərf olunan elektrik enerjisinin dəyəri əhali sektoru üzrə 83,4 % təşkil etmişdir.**

(ardı növbəti sayımızda)

Məzahir ƏHMƏDZADƏ